TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI

ON BİRİNCİ İCLAS

Bakı, 4 mart 2024-cü il

HESABAT MƏRUZƏSİ

"TÜRKPA ÜZV DÖVLƏTLƏRİNDƏ ELMİ VƏ TEXNOLOJİ İNKİŞAFDA PARLAMENTLƏRİN ROLU VƏ QANUNVERİCİLİK DƏSTƏYİ"

GİRİŞ

1. Türkiyə Respublikasının paytaxtı Ankarada keçirilən TÜRKPA-nın Plenar İclasında qəbul edilmiş Katibliyin 2024-cü il üçün Fəaliyyət Planına uyğun olaraq "TÜRKPA üzv dövlətlərində elmi və texnoloji inkişafda parlamentlərin rolu və qanunvericilik dəstəyi" məsələsinin həllinə dair qərar, TÜRKPA Hüquqiməsələlər və beynəlxalq əlaqələr Komissiyasının 11-ci iclasının gündəliyinin əsas maddəsi olmuşdur.
2. Ölkələrin elmi-texniki inkişafında plan, məqsəd, vəzifə və strategiyaların müəyyən edilməsində parlamentlərin mühüm rolu var. Bu kontekstdə parlamentlər büdcənin ayrılması və ona nəzarət, təhsil bazasının yaradılması, innovasiyaların təşviqi və beynəlxalq əməkdaşlıqla bağlı araşdırmalar aparır.
3. Cəmiyyətlərin tərəqqisində elmi və texnoloji inkişaf mühüm rol oynayır.Ölkələrin inkişafında elm və texnologiyanın rolu,iqtisadi artımla, daha çoxaraşdırma - təkmilləşdirmə (Ar - Tə)xərclərinin ÜDM- yə təsiri ilə izah olunmuşdur.Araşdırma - təkmilləşdirmə xərcininçox olması daha çox araşdırma - təkmilləşdirmə fəaliyyətinin həyata keçirildiyini göstərir.Araşdırma - təkmilləşdirmə fəaliyyəti(Ar - Tə), mədəniyyət, insanlar və cəmiyyət haqqında biliklərin artırılması və bunun yeni proses, sistem vətətbiqlərtərtib etmək məqsədilə istifadəsi üçün sistematik əsasda həyata keçirilən yaradıcı işləri, ekoloji cəhətdən uyğun məhsulların hazırlanması və ya proqram təminatı fəaliyyətləri ilə öz sahəsində elmi və

texnoloji inkişafı təmin edən, elmi və texnoloji qeyri-müəyyənliyə diqqət yetirən və nəticələri orijinal, eksperimental, elmi və texniki məzmuna sahib olan fəaliyyətləri ifadə edir.

4. Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO), ədəbiyyatda Dördüncü Sənaye İnqilabı kimi qəbul edilən Sənaye 4.0 ilə məsələyə xüsusi yanaşır, istehsal sənayesi əsasında inkişaf etdirilməsinə baxmayaraq, ağıllı (smart) nəqliyyat və logistika, ağıllı binalar, enerji, ağıllı sağlamlıq və ağıllı şəhərlər kimi digər bir sıra tətbiqləri də əhatə etməsi baxımından Sənaye 4.0 - ü Dayanıqlı İnkişaf Məqsədləri üçün vacib hesab edir. Sənaye 4.0 ilə yanaşı internet,obyektlərvə insanlar, hətta xidmətlər arasında əlaqə yaratmağa imkan verən bir vasitəyə çevrilmişdir.
5. Texnoloji inkişafın təzahürü kimi elektron parlament (e - Parlament),qanunverici orqan olan parlamentlərdə informasiya - kommunikasiya texnologiyalarından (İKT) istifadə mənasını daşıyır. Elektron Parlamentlə əlaqəli Türkiyədə aparılan bir araşdırmada (Sobacı, 2012b) 2000-ci ildə dünya parlamentlərinin 57%-nin, 2009-cu ildə isə 97%-nin rəsmi internet saytına sahib olduğu bildirilmişdir. 2010-cu ildən etibarən parlamentlərin rəsmi korporativ internet səhifəsi vasitəsilə məlumat və xidmətlər təqdim etməsi qlobal xidmət göstərilməsi standartına çevrilmişdir. Dünya praktikasında diqqəti cəlb edən digər məqam da parlament seçkilərində elektron səsvermə sistemlərindən istifadə edilməyə başlanmasıdır.
6. Bu hesabatın məqsədi TÜRKPAüzv dövlətlərinin inkişafına təsir edənelmi və texnoloji inkişafların əsasını təşkil edən qanunvericiliyin təsiri və ortaya çıxan inkişaf parametrlərində parlamentlərin rolunu müzakirə etməkdir. Beləliklə, üzv dövlətlərin mövcud vəziyyəti təhlil edilməklə parlamentlərarası əməkdaşlığın prioritet istiqamətləri müəyyən ediləcək.

AZƏRBAYCAN

7. Azərbaycan Respublikasının Milli Məclisi elmi və texnoloji inkişafı dəstəkləmək məqsədilə 2016-cı il tarixində iyun ayının 14-də “Elm haqqında” Qanunu qəbul edib.Bu Qanun elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi innovasiya fəaliyyətlərinin məqsədlərini, hüquq və vəzifələrini, elmi tədqiqatların maliyyələşdirilməsi vasitələrini, elmi nəaliyyətlərin təşviqi üçün inzibati və hüquqi prinsiplərini müəyyən edir.
8. Azərbaycan Respublikasında bu sahədə dövlət siyasətini müəyyən edən iki mühüm amil var. Bunlar “Azərbaycan 2030 - cu il: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri” sənədi və Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yaradılmasıdır.''Azərbaycan 2030 - cu il: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri” sənədiPrezidentin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilib. Bu sənədə daxil edilmiş beş milli hədəfin hər biri elmi və texnoloji tutuma malikdir.

9. Dördüncü Sənaye İnqilabı (Sənaye 4.0) Təhlil və Koordinasiya Mərkəzi qlobal iqtisadiyyatda tendensiyaları müəyyən edən rəqabət qaydalarını dəyişdirən Sənaye 4.0Azərbaycan Respublikasının mövqeyini gücləndirmək və bu baxımdan qabaqcıl ölkələr sırasında olmasını təmin etmək məqsədini daşıyır.Mərkəzin əsas vəzifəsi Azərbaycan və Sənaye 4.0 sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiyanı təmin etmək, eləcə də çağırışları, təşəbbüsləri, strategiyaları və layihələri təhlil etməkdir.
10. Ölkələrin inkişaf səviyyəsini göstərmək baxımından kosmik sənaye və peyklər böyük əhəmiyyət kəsb edir. Ölkə prezidentinin təşəbbüsü ilə 2023 - cü ildə parlament tərəfindən “Kosmik fəaliyyət haqqında” Qanun qəbul edilib. Qanun, Azərbaycan Respublikasında kosmik fəaliyyətin hüquqi, iqtisadi və inzibati əsaslarını, kosmik sənayedə kommersiya fəaliyyətləri üzrə ümumi şərtləri müəyyən edir və yer orbitində, ayda və digər səma cisimləri və onların orbitləri də daxil olmaqla kosmosda milli fəaliyyətlə bağlı münasibətləri tənzimləyir. Kosmik fəaliyyət və kosmik sənaye sahələrində investisiya qoyuluşları və dövlət - özəl qurum tərəfdaşlığı, Azərbaycan Respublikasının müvafiq olaraq “İnvestisiya fəaliyyəti haqqında” və “Dövlət - özəl sektor tərəfdaşlığı haqqında” Qanunlarına uyğun olaraq həyata keçirilir.
11. Qarşıdakı dövrdə elm və texnologiyanın inkişafı baxımından vacib rola malik olan “İnnovasiya fəaliyyəti haqqında” qanunun və Rəqəmsal Məcəllənin qəbul edilməsi gündəmdədir. Hər iki qanunun qüvvəyə minməsi ilə texnoloji həllərin ölkədə ictimai həyatın dəyişməsinə köklü təsir göstərəcəyi proqnozlaşdırılır.
12. Azərbaycanda son illər bir çox elektron informasiya sistemləri yaradılıb və bu sistemlər “e-gov.az” portalında yerləşdirilərək bir-biri ilə inteqrasiyalı şəklə gətirilmişdir. Bu fəaliyyətmütəmadi olaraq davam etdirilir vətəkmilləşdirilir. Azərbaycan Milli Məclisinin bütün müvafiq qanunlarda zəruri dəyişikliklər etməsi nəticəsində vətəndaşların yeni sistemə uyğunlaşması asanlaşdırılmışdır. Bunamüvafiq olaraq, vətəndaşlara dövlət xidmətləri göstərilərkən həmin şəxsin məlumat və sənədləri ilk növbədə “e-gov.az” portalından əldə edilir, bu məlumat və sənədlər olmadıqda isə müvafiq dövlət qurumunun icazəsi ilə onlara çıxış təmin edilir. Lakin bu sənədlərin "e-gov.az" portalından və ya aidiyyəti dövlət qurumundan alınmadıqda vətəndaşdan bu sənədi təqdim etməsi xahiş olunur.
13. “Elm haqqında” Qanunda göstərildiyi kimi, elm və texnikanın inkişafı ilk növbədə ona yaradılmış şəraitlə əlaqələndirilir. Bu kontekstdə son illərdə vergi və gömrük siyasətində idxal və daxili bazardakı faydalarının elm və texnologiyanı dəstəkləyən mallara, eləcə də elm baxımındandaha sıx istifadə olunan mallara tətbiqinə xüsusi diqqət yetirilir.Beləliklə, bir vergi ödəyicisi qazancının 10 faizə qədər olan hissəsini elmi fəaliyyətlərə xərclədikdə və təhsil müəssisələrinə köçürdükdə, ona gəlir vergisindən azadolma şamil edilir.Sənaye və texnologiya parklarının elmi-tədqiqat və

təcrübi-konstruksiya işlərinin aparılması məqsədiləidxal olunan maşın və texnoloji avadanlıqlar da əlavə dəyər vergisindən azaddır. Azərbaycanda innovasiya fəaliyyəti yeni qəbul edilmiş qanunlarla da dəstəklənir. O cümlədənmikro və ya kiçik sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlərə üç il müddətində vergi güzəşti tətbiq edilir.

14. 1 yanvar 2023- cü il tarixindənetibarən Azərbaycanda,İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) sektorunun inkişafı üçün geniş qanunlar paketi tətbiq edilməyə başlanılıb. Qanun, müəssisələrin və şəxslərin sistem inteqrasiyasını və proqram təminatının inkişaf etdirilməsi fəaliyyətlərini dəstəkləyir,vergi endirimlərinin təmin edilməsi yolu ilə ölkədə rəqəmsal inkişafı təşviq edir. Belə ki, ölkədə yerli İKT mütəxəssislərinin hazırlanması, xarici mütəxəssislərin işə cəlb edilməsi və İKT məhsullarının inkişafına dəstək verilməsi nəzərdə tutulur.

QAZAXISTAN

15. Qazaxıstan Respublikasının Rəqəmsal İnkişaf, İnnovasiya və Aerokosmik Sənaye Nazirliyi, ölkənin rəqəmsal inkişafı sahəsində innovasiyalar, rabitə, dövlət xidmətləri, elektron sənaye sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi ilə yanaşı elektron hökumətin təkmilləşdirilməsi, “Vətəndaşlar üçün hökumət” fəaliyyətinin əlaqələndirilməsi,informasiya təhlükəsizliyi, aviasiya və kosmik sənaye, geodeziya və kartoqrafiya ilə maraqlanır.Hökumət, 29 noyabr 2017 - ci il tarixli və 790 saylı sərəncamla Qazaxıstan Respublikasının Dövlət Planlaşdırma Sisteminin 66-cı bəndinə uyğun olaraq, “2023-2029-cu illər üçün rəqəmsal transformasiya, informasiya-kommunikasiya texnologiyalarının və kibertəhlükəsizlik sənayesinin inkişafı Konsepsiyası”nı təsdiq edib.
16. Qlobal İnnovasiya İndeksinin 2021-ci ildə dərc etdiyi “Ən İnnovativ 10 Ölkə” hesabatının məlumatlarına əsasən, Qazaxıstan Mərkəzi və Cənubi Asiya ölkələri arasında ilk üçlükdə yer alır.Texnoloji inkişafı təşviq etmək məqsədilə Qazaxıstan, sahibkarlıq mədəniyyətini təkmilləşdirəcək, texnologiya sektoruna investisiya cəlb edəcək və Qazaxıstanın Mərkəzi Asiyada texnologiya mərkəzi kimi xidmət etməsinin əsasını qoyacaq bir sıra islahatlar həyata keçirmişdir.Qazaxıstan,vətəndaşların, müəssisələrin və dövlət idarələrinin bir-biri ilə qarşılıqlı əlaqəsini dəyişdirmək məqsədini daşıyan "Rəqəmsal Qazaxıstan" kimi tanınan təşəbbüsdə əhəmiyyətli nəticələr əldə edib.
17. Qazaxıstan iqtisadi inkişafın və diversifikasiyanın hərəkətverici qüvvəsi kimi innovasiyaların təşviqinə getdikcə daha çox əhəmiyyət verir. Belə ki, Milli İnnovasiya Sisteminin (MİS) bəzi komponentlərinin təkmilləşdirilməsi, xüsusilə də innovasiyalara dövlət dəstəyi qurumlarının yaradılması nəzərdə tutulmuşdur. 2012 - ci ildə qəbul edilmiş “Sənaye innovasiya fəaliyyətinə dövlət dəstəyi haqqında” Qanun yeni siyasətlərin yolunu açır

və innovasiyalara tələbatın stimullaşdırılması zərurətini özündə ehtiva edir. Bu Qanun yeni koordinasiya mexanizmlərini nəzərdə tutur.

18. “Sürətləndirilmiş Sənaye İnnovativ İnkişafı üzrə Dövlət Proqramı” (SPAIID), təkmilləşdirilmiş innovasiya səmərəliliyi də daxil olmaqla ölkənin modernləşdirilməsi üçün hərtərəfli çərçivə yaratmışdır.Qazaxıstan, siyasətlərinin hazırlanmasında xarici təcrübədən istifadə etmək siyasətini izləyir.Mövcud dövlət dəstəyi proqramlarına icrasına nəzarət mexanizmləri və onların nəticələrinin qiymətləndirilməsi daxildir.
19. Qazaxıstan təhsil standartlarını yüksəltmək və xaricdə təhsil imkanlarını təmin etmək üçün tədbirləri həyata keçirir."İş Dünyası 2020 - ci il yol xəritəsi" çərçivəsindəidarəetmə kursları lazımi bacarıqların formalaşmasına müsbət təsir göstərmişdir.Universitetlər və digər bilik müəssisələrinin Milli İnnovasiya Sistemindəki rolu, ideyaları innovasiya layihələrinə çevirmək imkanlarının artırılması və digər innovasiya üzrə maraqlı tərəfləri ilə əlaqələrinin gücləndirilməsi ilə artırılıb.
20. Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyinin 2023-cü il Təhsil, Elm və İnnovasiyalar Statistikası üzrə qəbul kvotaları çərçivəsində, 64,3 min nəfər ali təhsil müəssisələrində təhsil alır; 23,3 mini dörd və daha çox azyaşlı uşağı olan ailələrin uşaqları, 19,3 minini kənd yerlərində yaşayan gənclərdən ibarət vətəndaşlar, 9,8 minini isətək valideynli ailələrdən olan uşaqlar təşkil edir.2023-2024-cü tədris ilinin əvvəlində ali təhsil müəssisələrində 37391 professor-müəllim heyəti işlə təmin olunub ki, onlardan 14982-si (40,1%) magistratura, 10504-ü (28,1%) doktorantura, 4168-i (27,8%) doktorluq dərəcəsindən sonrakı dərəcəyə sahibdir.
21. Türkiyə Elmi və Texnologiya Araşdırma Qurumu (TÜBİTAK) iləQazaxıstan Respublikasının Texnoloji İnkişaf üzrə Milli Agentliyi (National Agency for Technological Development, NATD) arasında 16 aprel 2015-ci il tarixində imzalanan Əməkdaşlıq Memorandumu ilə iki ölkənin sənaye təşkilatları arasında həyata keçiriləcək araşdırma layihələrinin dəstəklənməsinə yol açılmışdır. 2023-cü il noyabr ayının 3-də Astanada keçirilən Türk Dövlətləri Təşkilatının Onuncu Zirvə toplantısında üzv dövlətlərin müvafiq qurumları arasında metrologiya sahəsində əməkdaşlıq protokolu imzalanmışdır. Eyni istiqamətdə birgə fəaliyyət planının hazırlanması məqsədi daşıyan “Mühəndislik və Texnologiya Mərkəzi” konsepsiyası da qəbul edilmişdir.
22. Qazaxıstan Respublikasında 2011-ci ildən etibarən elm adı altında 26 yeni nizamlama aktı qəbul edilmişdir. Bunların arasında “Elmi və/və ya elmi-texniki fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması haqqında” Qanun (2015), “Elmi ekspertizanın tənzimlənməsi və aparılması ilə bağlı bəzi məsələlər haqqında” Qərar (2021), “Dövlət elmi-texniki ekspertizasının təşkili və aparılması Qaydalarının təsdiq edilməsi haqqında Fərman” (2011), Elmi və/və ya elmi-texniki fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması üzrə əsas normaların təsdiq edilməsi haqqında Qərar (2011), “Dövlət elmi-texniki ekspertizasının aparılması”

dövlət xidmətinin göstərilməsi qaydalarının təsdiq edilməsi haqqında Əsasnamə (2020) yer alır.

QIRĞIZISTAN

23. Rəqəmsal İnkişaf Nazirliyi, Qırğızıstan Respublikası Hökuməti yanında Rəqəmsal İnkişaf üzrə Dövlət Xidməti ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyinə bağlı Dövlət Qeydiyyatı Xidmətinin birləşdirilməsi nəticəsində Qırğızıstan Respublikası Prezidentinin 5 may 2021-ci il tarixli və 114 saylı "Qırğızıstan Respublikasının Nazirlər Kabineti haqqında" Fərmanı ilə yaradılmışdır.Bu birləşmə rəqəmsal transformasiyanı həyata keçirmək məqsədilə mənbələrin bir mərkəzdə toplanması vəQırğızıstanın rəqəmsal əsrdə davamlı inkişafı təmin etmək məqsədilə həyata keçirilmişdir.Rəqəmsal İnkişaf Nazirliyinədövlət xidmətlərinin rəqəmsallaşdırılması və əhalinin onlayn rejimdə müraciət edə biləcəyi xidmətlərin sayının artırılması tapşırığı verilmişdir.
24. Qırğızıstan Respublikasının qanunverici orqanı olan Joqorku Keneşin Sosial Məsələlər, Təhsil, Elm, Mədəniyyət və Səhiyyə Komitəsi ölkədə elm və innovasiyanın inkişafı ilə əlaqəli bütün qanunvericilik fəaliyyətlərini nəzərdən keçirir. Qanunvericiliyə uyğun olaraq Nazirlər Kabinetinə tövsiyələr hazırlayan məsləhət şurası kimi baş nazirin sədrlik etdiyi Elm, İnnovasiya və Texnologiyalar Şurası fəaliyyət göstərir. Bu şuranın əsas vəzifələri Qırğızıstan Respublikasında elmin inkişafının prioritet alətləri və mexanizmləri ilə yanaşı elmlə bağlı məsələlər üzrə dövlət siyasətinin həyata keçirilməsi tədbirləri üzrə tövsiyələr hazırlamaqdır.
25. Qırğızıstanpatent əqli mülkiyyətin qorunması və innovasiyaların inkişafı siyasətinin həyata keçirilməsinə cavabdeh olan səlahiyyətli dövlət orqanıdır. Qırğızıstanpatent öz üzərinə düşən vəzifələri yerinə yetirmək məqsədi ilə universitetlərin rəhbərliyi altında texnoparkların yaradılması, Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzlərinin açılması vəzifəsini yerinə yetirir.
26. "İnnovasiya fəaliyyəti haqqında" Qanun 26 noyabr 1999-cu ildə qəbul edilmiş, daha sonra 1 aprel 2020-ci il tarixdə dəyişdirilmişdir. Bu Qanun, dövlətininnovasiya fəaliyyətlərinin tənzimlənməsinin məqsəd və prinsiplərini, innovasiyaları və investisiyaları dəstəkləyən ictimai infrastrukturun strukturunu və təşkilini müəyyən edir."Elm və dövlət siyasətinin əsasları" Qanunu 15 aprel 1994 - cü il tarixdə qəbul edilmiş,16 iyun 2017 - ci il tarixdə dəyişdirilmişdir. Bu qanunun məqsədi, Qırğızıstan Respublikasında elmi fəaliyyət sahəsi üçün zəruri hüquqi, iqtisadi və sosial əsas şərait və təminatlar hazırlamaqdır.
27. Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) 2020-ci ildə Qırğızıstanın sabit genişzolaqlı internetə daxil olma səviyyəsinin 4,4 vəmobil genişzolaqlı internetə daxil olma nisbətinin yüzdə 119,3 olduğunu bildirmişdir. Qırğızıstan Dövlət Rabitə Agentliyinin məlumatına əsasən, fiber optik xətlərin uzunluğu 2017-ci ilə nəzərən iki dəfə artmışdır. 2023-cü

ilin əvvəlində Qırğızıstanda internetdən istifadə 77,9%-ə çatmış və ölkədə internet istifadəçisi sayının 5,2 milyonaçatdığı bildirimişdir. 2023-cü ilin yanvar ayına olan məlumata əsasən Qırğızıstanda əhalinin ümumi sayının 41,1%-nə bərabər olan 2,75 milyon insan sosial media istifadəçisi kimi qeydiyyatdan keçib.

28. Qırğızıstan Respublikasının inkişaf etməkdə olan İKT sektoru “Virtual İpək Yolu”nda əhəmiyyətli investisiya və ticarət imkanları təmin etməklə modernləşməni və regional inkişafı gücləndirmək üçün mühüm iqtisadi hərəkətverici qüvvəyə çevrilməyə hazırlanır. İnformasiya texnologiyaları sektoru Qırğızıstan Respublikasında ən sürətlə inkişaf edən sektorlardan biridir. Qırğızıstan Respublikası Qlobal İnnovasiya İndeksi reytinqində 129 ölkə arasında 117-ci yerdən (2013) 94-cü yerə (2021) yüksəlmişdir.
29. Qırğızıstan hökuməti 2019-cu ildə “Rəqəmsal Qırğızıstan 2019-2023” strategiyasını qəbul edib. Buna əsasən, rəqəmsal infrastrukturun və internetə qoşulmanınyaxşılaşdırılması, yerli məşğulluq imkanlarını təşviq etmək məqsədilə “rəqəmsal savadlılığın” təmin edilməsi və İT üzrə təlimlərin keçirilməsi nəzərdə tutulur. O cümlədən, elektron hökumət xidmətləri və platformalarının təkmilləşdirilməsi və maliyyə texnologiyaları və bank sektorlarının rəqəmsal transformasiyası vasitəsilə iqtisadi artımı dəstəkləmək məqsədini daşıyır.
30. Qırğızıstan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2022 - ci il tarixli və 16 saylı Qərarı Qırğızıstan Respublikası Nazirlər Kabinetinin tabeliyində olan Əqli Mülkiyyət və İnnovasiyalar üzrə Dövlət Agentliyi çərçivəsində İnnovasiya Mərkəzinin Əsasnaməsiniqəbul etmiş vəbeləliklə dövlət qurumu olan mərkəzin hüquqi və inzibati strukturu yaradılmışdır. İnnovasiya Mərkəzinin məqsədi Qırğızıstan Respublikasında müvafiq innovasiya ekosisteminin yaradılması üçün innovativ infrastrukturu inkişaf etdirmək və təşviq etməkdir.
31. Qırğızıstan Respublikasının Yüksək Texnologiyalar Parkı (YTP)Qırğızıstan Respublikasının Yüksək Texnologiyalar Parkı haqqındaQanunun (2011) 4 - cü maddəsinə əsasən, informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər üçünözəl vergi rejiminə sahib olan vəhüquqi zona anlayışını ifadə edir.Bu Qanun, proqram təminatının hazırlanması sənayesinə dövlət dəstəyinin hüquqi əsaslarını yaratmaqla yanaşı, Yüksək Texnologiyalar Parkının, onun idarəetmə orqanlarının, YTP şirkətlərinin fəaliyyətini və bu şirkətlərin vergitutma prinsiplərini müəyyən edir.

TÜRKİYƏ

32. Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi, "prezidentliyin təşkili haqqında 1 saylı prezident fərmanı" ilə Türkiyədə elmi, texniki və innovasiya siyasətinin müəyyənləşdirilməsindən, müəyyən siyasətlərin həyata keçirilməsindən və texnologiya üzrə elmi tədqiqat, inkişaf və innovasiya proqramları və layihələrinin dəstəklənməsindən məsul bir qurum olaraq təyin edilmişdir. Nazirlik həmçinin elm, texnologiya

və innovasiya siyasəti çərçivəsində milli kompetensiyanın inkişafı üçün siyasi təkliflər hazırlayır və strategiyalar formalaşdırır.

33. 2021-2025-ci illər arasında Türkiyənin süni intellekt sahəsində strateji prioritet və hədəflərini müəyyən etmək və süni intellekt sahəsində fəaliyyətlər həyata keçirməküçün Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və Türkiyə Cümhuriyyəti Prezident Administrasiyanının Rəqəmsal TransformasiyaOfisi, 11-ci İnkişaf Planı və Türkiyə Cümhuriyyəti Prezident Administrasiyanınınillik proqramlarına uyğun olaraq Milli Süni İntellekt Strategiyasını hazırlayıb.
34. Türkiyə Respublikasında 278 saylı “Türkiyə Elmi və Texnoloji Tədqiqat Qurumu ilə Bəzi Nizamlamalar haqqında Qanun” ilk dəfə 1963-cü ildə qüvvəyə minmişdir. Qısa adı TÜBİTAK olan qurum, Türkiyənin rəqabət qabiliyyətini və rifahını artırmaq, elm və texnologiya mədəniyyətinin inkişafında liderlik etmək məqsədi ilə inzibati və maliyyə suverenliyi olan, Sənaye və Texnologiya Nazirliyi ilə əlaqəli və xüsusi büdcə ilə yaradılmışdır. TÜBİTAK Türkiyədə elmi və texnoloji sahələrdə tədqiqat və inkişaf fəaliyyətlərinin dəstəklənməsi, əlaqələndirilməsi və monitorinqi və bu məqsədlə proqram və layihələrin hazırlanmasından məsuldur. TÜBİTAK öz elmini inkişaf etdirmək üçün yerli və xarici tədqiqat qurumları ilə əməkdaşlıq edir və Türkiyə adından beynəlxalq elmi və texniki müqavilələrə tərəf olur.
35. 2008-ci ildə 5746 saylı “Tədqiqat, təkmilləşdirmə və layihələndirmə fəaliyyətinin dəstəklənməsi haqqında Qanun” araşdırma - təkmilləşdirmə vasitəsilə texnoloji biliklərin istehsalı, bu biliklərin kommersiyalaşdırılması, innovasiya,tərtibat üçün birbaşa xarici kapital qoyuluşlarının artırılması və dəstəklənməsi və ixtisaslı işçi qüvvəsinin işə cəlb edilməsi məqsədi ilə qəbul edilmişdir. Bu Qanuna,araşdırma - təkmilləşdirmə, innovasiya, araşdırma - təkmilləşdirmə mərkəzi, araşdırma - təkmilləşdirmə layihəsi, texno sahibkarlıq kapitalı, dizayn fəaliyyəti, dizayn mərkəzi kimi tərifl ər daxildir. Elmi və texnoloji inkişafa zəmin yaradan güzəştlər, istisnalar və stimullar da bu Qanuna daxildir.
36. Türkiyədə araşdırma - təkmilləşdirmə hədəfləri və siyasətləri 1983-cü ildə yaradılmış Elm və Texnologiya Ali Şurası (ETAŞ) tərəfindən müəyyən edilir. ETAŞ, 1989 - cu ildə keçirilmiş ilk iclasında yaxın 10 il ərzində araşdırma - təkmilləşdirmə xərclərinin ÜDM - yə nisbətini 2% - ə çatdırmaq və araşdırma - təkmilləşdirmə tədqiqatçılarının sayını (30/10.000 nəfər) artırmaq üzrə iki hədəf müəyyənləşdirib. Türkiyə Statistika Qurumu (TÜSQ) tərəfindən həyata keçirilən 2022 - ci il üzrə araşdırma və təkmilləşdirmə fəaliyyətləri üzrə araşdırmasına əsasən, ümumi daxili araşdırma və təkmilləşdirmə xərcləri 2022-ci ildə əvvəlki ilə nisbətən 96 milyard 932 milyon TL artaraq 198 milyard 670 milyon TL - yə çatmışdır. Ümumi daxili araşdırma və təkmilləşdirmə xərclərinin ÜDM - dəki nisbəti 2021 - ci ildə 1,40% olduğu halda, 2022 - ci ildə ÜDM - dəki nisbəti 15 trilyon 11 milyard 776 milyon TL ilə 1,32% oldu.Dünyada

araşdırma - təkmilləşdirməyə ən çox pul xərcləyən 2500 şirkət arasında (EU R&D Scoreboard: 2022) 3-ü Türkiyə mənşəli şirkətdir.

37. Türkiyə Kosmik Agentliyi (TUA) Türkiyənin kosmos və aerokosmik sənayesini inkişaf etdirmək və ölkə daxilində kosmos və aerokosmik elm və texnologiyalara marağın inkişafına öncülük etmək üçün Prezidentin Fərmanı ilə Sənaye və Texnologiya Nazirliyi ilə əlaqəli olan inzibati və maliyyə muxtariyyəti və xüsusi büdcə ilə yaradılmışdır. TUA Prezidentin müəyyən etdiyi siyasətlərə uyğun olaraq Milli Kosmik Proqramın hazırlanmasına və həyata keçirilməsinə cavabdehdir. Türkiyə Respublikasının Türkiyə Kosmik Agentliyi ilə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi arasında 2021-ci ildə kosmik fəaliyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.
38. Türkiyənin bir çoxu hərbi sahədə olmaqla, həyata keçirilən layihələr ilə (məsələn, pilotsuz uçuş aparatları, elektrik mühərrik texnologiyaları və s.) yaxın 10-15 ildə müəyyən sahələrdə araşdırma - təkmilləşdirmə mərkəzinə çevrilmək potensialı vurğulanır.Hazırda həyata keçirilən layihələrin beynəlxalq standartlara cavab verməsinin və daim müasir, rəqabətədavamlı texnoloji səviyyədə saxlanmasının təmin edilməsi bu potensialı gücləndirəcək. Araşdırma - təkmilləşdirmə xərcləri / ÜDM - də 3%olma hədəfi,bu baxımdan böyük əhəmiyyət kəsb edir. Türkiyə Prezidenti tərəfindən açıqlanan Türkiyə Əsri Vizion Sənədində 16 başlıq arasında yer alan davamlılıq, inkişaf və elm sahələrindəki layihələr ölkənin mövcud potensialını hərəkətə keçirir.
39. Evlərintəxminən 92%-nin genişzolaqlı internetə çıxışı var. Evlərin təxminən 61,9% - i sabit genişzolaqlı, 88,5%-i isə mobil genişzolaqlı internetdən istifadə edir. Genişzolaqlı internetdən istifadə üçün 88,5 milyon mobil abunə var. Türkiyədə 68,9 milyon aktiv sosial media istifadəçisi var. Bu, əhalinin 80,8% - nə bərabərdir. 6 avqust 2020-ci il tarixində Türkiyə Böyük Millət Məclisi “İnternetdə Yayımlanan Nəşrlərin Tənzimlənməsi və Bu Nəşrlər Vasitəsilə törədilən Cinayətlərlə Mübarizə haqqında Qanun”da aparılan tənzimləmələrlə təhqiramiz hesab edilən məzmunun silinməsi ilə əlaqəli rəsmi tələblərə əməl etməyən platformalara (gündəlik girişi bir milyondan çox olanlar) girişi əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilər. Qanun, həmçinin sosial media şirkətlərinin ölkədə ən azı bir nümayəndəsinin olmasını tələb edir.
40. Hücumlara və viruslara qarşı şəbəkənin təhlükəsizliyi, elektron poçt və veb təhlükəsizliyi, kiber idarəetmə, şəxsiyyət və sertifikat idarəçiliyi, mobil təhlükəsizlik, sistem təhlükəsizliyi, məlumat və proqram təhlükəsizliyi əsas prioritetli məsələlərdir. Hökumət kibertəhlükələrlə mübarizə aparmaq üçün aparat və proqram təminatına xərcləri artırıb. BTQ, Nəqliyyat və İnfrastruktur Nazirliyi, Prezidentin Rəqəmsal Transformasiya İdarəsi, Ədliyyə və Daxili İşlər Nazirliyi, Təhlükəsizlik Baş İdarəsi və Türkiyə Silahlı Qüvvələri kibertəhlükəsizlik texnologiyalarını daim yeniləyir. Nəqliyyat və İnfrastruktur Nazirliyi dövlət qurum və təşkilatlarına qarşı kiberhücumların

qarşısının alınması və yumşaldılması ilə bağlı Kiber İnsidentlərə Müdaxilə Qrupları (KİMQ) yaratmışdır.Türkiyənin İnformasiya Texnologiyaları və Rabitə İdarəsi (İTRQ) Türkiyədə 5G fəaliyyətlərinə rəhbərlik edən səlahiyyətli və əsas qurumdur.

41. 22 oktyabr 2009-cu ildə Türkiyə Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında iki ölkə arasında elmi və texnoloji əməkdaşlıq fəaliyyətlərini dəstəkləmək məqsədilə Elm və Texnologiya Sahəsində Əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Türkiyə Respublikasının Elm, Sənaye və Texnologiya Nazirliyi iləAzərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında Elm, texnologiya, sənaye və sahibkarlıq sahələrində əməkdaşlığı gücləndirmək üçün Anlaşma Memorandumu, 2013-cü il noyabrın 13-də Ankarada imzalanıb. 2014-cü ildə TÜBİTAK ilə Qırğızıstan Respublikası Milli Elmlər Akademiyası (National Academy of Sciences of the Kyrgyz Republic-NAS KR) arasında 2014-cü ildə imzalanmış Elm və Texnologiya Sahəsində Əməkdaşlıq Protokoluna uyğun olaraq iki ölkə alimləri arasında ortaqaraşdırma - təkmilləşdirmə layihələridəstəklənir.
42. Türkiyədə parlamentin rəsmi internet saytı 1996 - cı ildə “http://www.tbmm.gov.tr” ünvanındafəaliyyətə başlamışdır. Belə ki, 1994-cü ildə televiziya kanalı kimi yaradılan Parlament Televiziyası (Məclis TV, http://tv.tbmm.gov.tr/) da vaxt keçdikcə öz internet saytı vasitəsi ilə televiziya yayımını edəcək şəklə gəlib.Bu illər ərzində parlamentin əsas funksiyaları olan nümayəndəlik, qanun yaradıcılığı və nəzarət/təftiş fəaliyyətləri barəsində təqdim olunan birçoxməlumat vəxidmət bu bu sayt vasitəsilə ictimaiyyətə təqdim olunur.

NƏTİCƏ

43. Ölkələrin elmi-texniki inkişafında planların, məqsədlərin, hədəflərin və strategiyaların müəyyən edilməsində parlamentlərin rolu mühümdür.Milli sərvətlər üçün investisiya sahələrinin müəyyən edilməsində və yoxlanmasında ən səlahiyyətli qurum qanunverici orqandır. Bu səbəbdən də ölkələrin inkişafında parlamentlərin roluinkişafın əsas oxunu və istiqamətini real şəkildə müəyyən etdikləri dərəcədə güclənəcək.
44. Rəqəmsal həllərin və elektron informasiya sistemlərinin yaradılması bu gün şəffaflığın təmin edilməsində və vətəndaş məmnunluğunun artırılmasında mühüm rol oynayır.
45. Texnologiyanın inkişafı və onun geniş tətbiqi bu gün hüquq münasibətlərinin fərqli olmasına səbəb olur. Ancaq hər gün yenilənən və dəyişən texnologiya qarşısında bütün yeni cinayət növlərini əhatə edə biləcək ümumi və aktual qanunvericiliyə olan tələbat aktual hal alır.Beynəlxalq aləmdə kibercinayətlərə qarşı birgə və effektiv mübarizənin aparılması böyük əhəmiyyət kəsb edir.
46. Qlobal miqyasda bütün dünyanı əhatə edən internet cihazının funksiyasını nəzərə alsaq, cinayət hüququ sahəsində yaranan

kibercinayətlər və borclar (öhdəliklər) hüququ sahəsindəki yenicinayət növlərinə qarşı TÜRKPA üzvü olan parlamentlərlə əməkdaşlıq çərçivəsində aparılacaq qanunvericilik araşdırmaları birgə mübarizənin səmərəli olmasını təmin edəcək.

47. Kosmik sənaye, kosmik sahibkarlıq, kosmosa çıxış və kəşfiyyat bir çox ölkələr üçün elmi və iqtisadi inkişaf üçün mühüm investisiya sahələridir. Bu baxımdan tələb olunan hüquqi bazaların yaradılması, qanunvericilik işlərinin aparılması, lazımi maliyyə yardımı və infrastrukturun yaradılması, bu sahədə irəliləyişə nail olmuş ölkələrlə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən TÜRKPA üzv ölkələri arasında sıx əməkdaşlıq informasiya və texnologiya mübadiləsini artıracağı üçün böyük əhəmiyyət kəsb edir.
48. Texnoloji və elmi inkişaflar əsasən araşdırma - təkmilləşdirmə fəaliyyətlərinin bir nəticəsidir, araşdırma - təkmilləşdirməyə daha çox vəsait ayırmaq üçün daha ixtisaslı tədqiqatçıların olması vacibdir. İnsan kapitalı və bacarıqları beynəlxalq əməkdaşlıq vasitəsilə təkmilləşdirilə bilər. Bu sahədə, tədqiqatçıların hərəkətliliyinə daha çox dəstəyin təmin olunması,tədqiqatların maliyyələşdirilməsinin stimullaşdırılmasının artırılması, elmi tədqiqat institutlarını həm yerli, həm də beynəlxalq layihələrdə iştirak etməyə təşviq edilməsi,ixtisaslı əcnəbi işçi qüvvəsinin istifadəsi və yerli kadrların hazırlanması üçün xarici investorlarla əməkdaşlıq proqramları istifadə oluna bilər. Tədqiqatçıların qısa müddətdə yetişdirilə bilməyəcəyini nəzərə aldıqda, xarici tədqiqatçıların üzv dövlətlərdə işləməsini təmin edəcək təcrübələrin tətbiqi aktuallaşdırıla bilər.
49. “Türk Dünyası 2040 Vizyonu”sənədində, İqtisadi və Sektoral Əməkdaşlıq bölməsinin İnformasiya və Kommunikasiya Texnologiyaları alt başlığı altında yer alan səkkiz maddənin hamısının türk dövlətlərinin elmi-texniki inkişaf səviyyəsinin gücləndirilməsi məqsədinə xidmət etdiyi vurğulanır.